Salam, əziz dostum Gohar,

Səni ürəkdən salamlayır və məktubuna, eləcə də ifadə etdiyin səmimiyyətə görə təşəkkür edirəm. Mən də öz məktubumda sənə qarşı eyni səmimiyyəti göstərməyə çalışacağam. Sən çox düz qeyd edirsən ki, biz eyni bir dünyada yaşayırıq, eyni bir kainatı paylaşırıq. Əsrlər boyunca xalqlarımız dost və qonşuluq münasibətləri daxilində həyat sürmüşlər. Mən də sülhpərvər bir gənc kimi müharibəni lənətləyir və qınayıram. Çünki müharibə itkidir, acıdır, anaların göz yaşlarıdır, ölümdür, xəstəlikdir. Bu, dəhşətli bir hadisədir. Mən bir neçə qohumumu bu münaqişədə döyüşərkən şəhid olaraq itirmişəm və şübhəsiz ki, sənin də belə qohum və tanışların az deyil. Sözsüz ki, biz– gənc nəsil qarşısında duran birinci dərəcəli vəzifə müharibəyə son qoymaq üçün çalışmaq, əlverişli sülhün əldə edilməsinə nail olmaqdır. Xüsusilə də, Ermənistan və Azərbaycan kimi illər boyu dostluq və qardaşlıq altında yaşamış dövlətlər üçün bu, olduqca vacibdir. Mənim valideynlərim, yaşlı nəslin nümayəndələri daim ermənilərlə illər boyu sürmüş əlaqələrimizdən, onlarla yaxınlığımızdan bəhs edirlər. Nənəm qeyd edir ki, illər öncə qonşularından biri erməni olub və onunla çox mehriban olublar, tez–tez bir–birilərinin evinə qonaq gedər, bir–birilərinə köməklik göstərərmişlər. Atam və anam qeyd edir ki, onların sinif yoldaşlarının bir qismi erməni olub və onlar üçün bunun heç bir fərqi olmayıb. Burda, zənnimcə, təəccüblü heç bir şey yoxdur. Çünki Bakı SSRİ–nin tərkibində olarkən çoxmillətli şəhər idi və burda bütün millətlərin nümayəndələrinə rast gəlmək mümkün idi. Əslində aramıza düşmüş bu ərazi münaqişəsini sülh yolu ilə daha əvvəldən həll edə bilərdik, əgər xalqlarımız üçüncü bir tərəfin müdaxiləsinə məruz qalmasaydı. Mən səni tam əmin edə bilərəm ki, mən sizin xalqa, eləcə də sənə qarşı düşmənçilik bəsləmirəm. Çünki zənnimcə, bir insana sırf milliyatinə görə nifrət bəsləmək humanizm prinsiplərinə uyğun deyil. Xalqın hər bir fərdini heç də müharibə və münaqişə yaşandığına görə günahlandırmaq və ya bu səbəbdən onlara nifrət bəsləmək düzgün deyil. Mən əminəm ki, sən və sənin kimi gənclər müharibənin davam etməsinin, bu qədər soydaşınızın ərazi mübahisəsi ucbatından hər gün həlak olmasının tərəfdarı deyil və inan ki, mən də bu ideyanın daşıyıcısı olan gənclərdən biriyəm. Çox istərdim ki, mənə bu gözəl məktubu yazmış qızı tanıyam, onunla üz–üzə söhbət edəm, sənin də vurğuladığın kimi, çay süfrəsi ətrafında onunla birgə əyləşəm. Lakin çox təəssüflər olsun ki, dövlətlərimizin düşmənçiliyi üzündən bu hal–hazırda mümkün deyil. Lakin mən ürəkdən inanıram ki, o gün yetişəcək. Ərazi münaqişəmiz məhz sülh yolu ilə həll ediləcək, müharibəyə son qoyulacaq və bizim xalqımız sizin ərazinizə, siz də bizim ərazimizə rahatlıqla səfər edə biləcəksiniz. Bax o zaman mən səni öz evimə qonaq çağıracağam, səni öz tariximiz, ənənələrimiz, mədəniyyətimizlə tanış edəcəyəm. Ümumiyyətlə, səni tanış edəcəyim şeylər sənə o qədər də yad gəlməyəcək. Çünki Qafqaz xalqlarından olduğumuza görə bizim bütün milli dəyərlərimiz bir–birinə oxşardır.

Mənə belə bir sual vermisən ki, sən sülhü necə təsəvvür edirsən. Mənə görə sülh dostluqdur, qardaşlıqdır, iki dövlət arasındakı münasibətlərin ən alisi və ən mükəmməlidir. Dostum, zənnimcə, sülh xalqlardan və onlar arasındakı münasibətlərdən başlamalıdır. Onu sən, mən və bizim kimi hər iki tərəfdən olan minlərlə gənc başlatmalı, davam etdirməli və qoruyub saxlamalıdır. Sülhü əldə etmək çətindirsə, qoruyub saxlamaq, onun keşiyində dayanmaq daha çətindir.

Mən politoloq ixtisasına yiyələnirəm, artıq üçüncü kursdayam. Gələcəyin siyasətçisi kimi ən əsas hədəfim isə bu münaqişəni sülh yolu ilə həll etmək, itkilərə, acılara, hər iki tərəfdən fəryad edən anaların göz yaşlarına, ah–nalələrinə son qoymaqdır. Ümid edirəm ki, bu arzuma çatacam, çünki bu məqsəd son dərəcədə ali bir məqsəddir. Mən sənin fikirlərin, təəssüratlarınla tanış olduğuma olduqca şadam. Ümid edirəm ki, ölkələrimiz sülhü əldə etdikdən sonra səninlə qarşılıqlı şəkildə sülh naminə bu ali addımı atdığımıza görə özümüzlə fəxr edəcəyik.

Məktubuna görə bir daha minnətdarlığımı ifadə etmək istəyirəm. Salamat qal, dostum. Çətin, lakin şərəfli sülh yolunda sənə uğurlar.

Sənin ölkəmizə qonaq gələcəyin günü səbirsizliklə gözləyən sülhsevər. Nəzrin